# Kənd təsərrüfatında özəl təsərrüfatların formalaşmasına yardım üzrə Dövlət Komissiyasının və Kənd Təsərrüfatında Özəl Bölmənin İnkişafına Yardım Agentliyinin Əsasnamələri haqqında

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

"Kənd təsərrüfatında özəl təsərrüfatların formalaşmasına yardım üzrə Dövlət Komissiyası haqqında" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 7 fevral tarixli, 275 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Kənd təsərrüfatında özəl təsərrüfatların formalaşmasına yardım üzrə Dövlət Komissiyasının və Kənd Təsərrüfatında Özəl Bölmənin İnkişafına Yardım Agentliyinin Əsasnamələri" təsdiq edilsin (əlavə olunur.)
2. "Kənd təsərrüfatında nümunəvi özəl təsərrüfatların formalaşmasına yardım üzrə Dövlət Komissiyasının Əsasnaməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1996-cı il 8 oktyabr tarixli 138 nömrəli qərarı və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1996-cı il 2 dekabr tarixli, 168 nömrəli qərarı ilə təsdiq edilmiş "Nümunəvi özəl təsərrüfat müəssisələrinin yaradılması layihəsinin tətbiqi üzrə Mərkəzi işçi orqanı haqqında Əsasnamə" qüvvədən düşmüş hesab edilsin.
3. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri A. RASİZADƏ**

Bakı şəhəri, 11 aprel 2000-ci il
№ 65

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2000-ci il 11 aprel tarixli, 65 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR.

## Kənd Təsərrüfatında Özəl Bölmənin İnkişafına Yardım Agentliyi haqqında

## ƏSASNAMƏ

### I. ÜMUMİ MÜDDƏALAR

1.1. Kənd Təsərrüfatında Özəl Bölmənin İnkişafına Yardım Agentliyinin aparatı (bundan sonra — Agentlik) və onun yerli orqanları (rayon işçi orqanları və «Kənd təsərrüfatının inkişafı və kreditləşdirilməsi Layihəsi»nə uyğun yaradılan regional qurumlar) Agentliyin vahid sistemini təşkil edirlər.

1.2. Agentliyin əsas vəzifəsi kənd təsərrüfatında islahatların aparılmasını və özəl bölmənin inkişafını sürətləndirmək üçün beynəlxalq maliyyə təşkilatları ilə birlikdə «Təsərrüfatların özəlləşdirilməsi Layihəsi»nin və «Kənd təsərrüfatının inkişafı və

kreditləşdirilməsi Layihəsi»nin (bundan sonra — layihələr) tabeliyində olan rayon işçi orqanları, regional qurumlar və layihələrin iştirakçısı olan nazirlik, komitə, aidiyyəti banklar və digər təşkilatlarla birlikdə həyata keçirilməsini təmin etməkdir.

1.3. Agentlik öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, digər qanunvericilik və normativ hüquqi aktları, habelə Kənd təsərrüfatında özəl təsərrüfatların formalaşmasına yardım üzrə Dövlət Komissiyasının (bundan sonra — Dövlət Komissiyası) qərarlarını, beynəlxalq maliyyə təşkilatları ilə bağlanmış kredit sazişlərini və bu Əsasnaməni rəhbər tutur.

1.4. Agentlik Dövlət Komissiyasının tabeliyindədir.

1.5. Agentlik Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq hüquqi şəxsdir, Azərbaycan Respublikasının Dövlət Gerbinin təsvirini və özünün adını əks etdirən möhürə malikdir və Bakı şəhərində yerləşir.

1.6. Agentlik Azərbaycan Respublikasının Milli Bankında, Beynəlxalq Səhmdar Kommersiya Bankında və digər aidiyyəti banklarda hesablaşma və valyuta hesabları aça bilər.

1.7. Agentlik layihələrdə nəzərdə tutulmuş dövlət büdcəsinin və beynəlxalq maliyyə təşkilatlarının kredit vəsaitləri hesabına maliyyələşdirilir. Bərdə, Lənkəran, Salyan, Ucar, Xaçmaz və Naxçıvan Muxtar Respublikasının Şərur rayonlarında yaradılmış rayon işçi orqanlarının və regional qurumların fəaliyyətinə rəhbərlik edir.

1.8. Agentlik Dövlət Komissiyasının rəhbərliyi altında beynəlxalq və respublika maliyyə təşkilatları, habelə layihələrin iştirakçısı olan nazirlik, komitə, şirkət, konsern və baş idarələrlə sıx əlaqədə işləyir.

## II. AGENTLİYİN FUNKSİYALARI VƏ HÜQUQLARI

2.1. Agentlik öz vəzifəsini yerinə yetirmək üçün aşağıdakı funksiyaları həyata keçirir:

layihələrin tətbiqi ilə əlaqədar görülmüş işlər barədə hər rübün yekununa görə Dövlət Komissiyasına hesabat verir;

rayon işçi orqanlarının və regional qurumların ştat vahidləri və onların vəzifə maaşları barədə təkliflərini Dövlət Komissiyasının təsdiqinə verir;

növbəti maliyyə ili üçün layihələrin tətbiqi ilə əlaqədar büdcə və iş proqramlarını tərtib edib Dövlət Komissiyasına və Dünya Bankına göndərilməsini təmin edir;

layihələrin icrasına dair hesabat tələb edir və öz səlahiyyətləri daxilində müvafiq göstərişlər verir;

rayon işçi orqanlarına, regional qurumlara, habelə layihələrdə iştirak edən nazirlik, komitə və digər təşkilatların sifarişi əsasında lazımi iş şəraitinin yaradılması üçün (tender müsabiqələrinin keçirilməsi vasitəsilə inventar, avadanlıq, nəqliyyat vasitələri və digər məsələlərin həlli və s.) tədarük işlərini həyata keçirir və bu barədə Dövlət Komissiyasına məlumatlar verir;

layihələr daxilində aidiyyəti nazirlik, komitə və digər təşkilatlar arasında koordinasiya, büdcənin hazırlanmasını, əmək ehtiyatlarının idarə olunmasını, təlim, texniki köməklik, ödəniş, hesabat, audit, nəzarət, qiymətləndirmə ilə əlaqədar işləri təşkil edir və Dövlət Komissiyası adından onlardan məlumatlar alır;

layihələrin tətbiqi ilə əlaqədar təklif, müraciət və ərizələrə müntəzəm olaraq baxır, onları təhlil edir, lazım gəldikdə, öz səlahiyyətləri daxilində zəruri təkliflərin həyata keçirilməsini təmin edir.

layihələrin tətbiqinə ona verilən səlahiyyətlər daxilində bağlanmış "Kredit Sazişi"ndən irəli gələn vəzifələri icra edir;

layihə üzrə həyata keçirilən işlərin monitorinqini təşkil edir;

tətbiq olunan layihələr çərçivəsində xaricdən cəlb edilmiş kredit vəsaitlərinin istifadəsi üzrə bütün prosedurlar barədə (audit, tender, malların alqı-satqısı, kontraktlar və s.) ödənişlər həyata keçirilməzdən əvvəl xarici dövlət borcunun idarə edilməsini həyata keçirən Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə məlumat verir;

layihələrin tətbiqi ilə əlaqədar malların tədarükü və xidmətlərin göstərilməsi ilə bağlı keçirilən tenderlərdə Azərbaycan Respublikası maliyyə və İqtisadiyyat ~~və Sənaye~~ nazirliklərinin nümayəndələrinin iştirakını təmin edir.[1]

2.2. Agentliyin hüquqları:

layihələrin həyata keçirilməsi ilə əlaqədar Dövlət Komissiyasına təkliflər verilməsi;

layihələrin yerinə yetirilməsi ilə əlaqədar kənardan ekspert və məsləhətçilərin cəlb edilməsi;

zəruri hallarda Agentliyin və rayon işçi orqanlarının, regional qurumların əsasnamələrinə əlavələr və dəyişikliklər edilməsi barədə Dövlət Komissiyasına təkliflərin verilməsi.

## III. AGENTLİYİN RƏHBƏRİNİN SƏLAHİYYƏTLƏRİ

3.1. Agentliyin rəhbəri Dövlət Komissiyası sədrinin təklifinə əsasən Dövlət Komissiyasının qərarı ilə vəzifəyə təyin və vəzifədən azad edilir.

3.2. Agentliyin rəhbəri:

Agentliyin fəaliyyətinə rəhbərlik edir və onun işini təşkil edir;

onun təqdimatına əsasən Agentliyin rəhbərinin müavininin namizədliyi Dövlət Komissiyasında təsdiq edildikdən sonra vəzifəyə təyin və vəzifədən azad edir;

Agentliyin və rayon işçi orqanlarının işçilərini müsabiqə əsasında vəzifəyə təyin edir və vəzifədən azad edir;

Agentlik işçiləri arasında iş bölgüsü aparır və onların, eləcə də rəhbərin müavininin görəcəyi iş funksiyalarını müəyyənləşdirir;

Agentliyi üçüncü şəxslərlə münasibətlərdə təmsil edir;

öz səlahiyyətləri daxilində Agentliyin fəaliyyəti ilə əlaqədar əmr və göstərişlər verir;

layihələrin tətbiqi ilə əlaqədar nazirlik, komitə, şirkət və digər baş idarə rəhbərlərinə, rayon (şəhər) icra hakimiyyəti orqanlarına müraciət edib onlardan lazımi məlumat və köməklik ala bilər;

layihələrin ayrı-ayrı tərkib hissələrinin həyata keçirilməsi üçün layihə iştirakçılarının sifarişləri əsasında Dövlət Komissiyası ilə razılaşdırılmaqla xüsusi hesablardan vəsait götürmək səlahiyyətinə malikdir;

texniki, maliyyə və hüquq məsləhətlərinin verilməsi, təhlillər aparmaq üçün yüksək ixtisaslı yerli mütəxəssisləri cəlb etməkdən ötrü layihələrdə göstərilən məqsədlərdə nəzərdə tutulmuş vəsaitlərdən Dövlət Komissiyasının sədri ilə razılaşdırılmaqla istifadə edə bilər;

layihələr üzrə maliyyə vəsaitlərinin nəzərdə tutulan məqsədlərə səmərəli istifadə edilməsinə görə məsuliyyət daşıyır.[2]